Azərbaycan Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının
29 dekabr 2022-ci il tarixli
**2 saylı iclas Protokolundan çıxarış**

Bakı şəhəri 29 dekabr 2022-ci il

**Eşidildi:** Resursların səfərbər edilməsi, fandreyzinq və rəqəmsallaşdırma istiqamətlərində AzQAC-la əməkdaşlıq edən şirkətlər və təşkilatların xidmət haqları və texniki xərclərinin ödənilməsi qaydalarının təsdiqi.

*(Məruzəçi: Baş Mühasib Nailə Cəfərova)*

AzQAC İdarəetmə Şurası AzQAC Nizamnaməsinin
18-ci maddəsini rəhbər tutaraq
**qərara alır:**

1. AzQAC-ın Resursların səfərbər edilməsi, fandreyzinq və rəqəmsallaşdırma fəaliyyətləri çərçivəsində:
    a. AzQAC-a aid olan rəsmi internet səhifə domenlərinin (www.redcrescent.az, www.redcrescent.org.az, www.yardim.et, www.yardimet.az, www.yardim-et.az və s.) icarə haqları, hostinq, server, təhlükəsizlik sertifikatları (SSL), data-bazaları və digər proqram təminatının hazırlanması, tətbiqi, inkişafı, yenilənməsi və aktual (işlək) vəziyyətdə saxlanılmasının təmin edilməsi;
    b. Kütləvi SMS və elektron məktubların göndərişinin təmin edilməsi;
    c. SMS vasitəsi ilə ianələrin qəbulunun təmin edilməsi;
    d. İanələrin İdarəetmə Sisteminin hazırlanması, tətbiqi, inkişafı, yenilənməsi və aktual (işlək) vəziyyətdə saxlanılmasının təmin edilməsi;
    e. AzQAC-ın Resursların səfərbər edilməsi, fandreyzinq və rəqəmsallaşdırma istiqamətlərində maarifləndirmə (reklam və marketinq) xidmətlərinin təmin edilməsi;
    f. İşgüzar elektron poçt sisteminin tətbiqi, inkişafı, lisenziyaların alınması, yenilənməsi və aktual (işlək) vəziyyətdə saxlanılmasının təmin edilməsi;
    g. AzQAC-ın sosial media hesablarının (Facebook, Instagram, Twitter, Youtube) aktual (işlək) vəziyyətdə saxlanılması və inkişafının (reklam və marketinq) təmin edilməsi
    h. Yuxarda qeyd olunmayan, digər Resursların səfərbər edilməsi, fandreyzinq və rəqəmsallaşdırma istiqamətlərində göstərilən xidmətlərin təmin edilməsi;
    i. Yuxarıda qeyd olunanlardan asılı olaraq meydana çıxan bank köçürmələri və valyuta mübadilə xərclərinin təmin edilməsindən

    yaranan xidmət haqları və texniki xərclərin ödənilməsi üçün AzQAC-a faktiki daxil olan ianələrin 10%-dən (on) çox olmayaraq texniki xərc kimi nəzərdə tutulması təsdiq edilsin.

2. Qeyd edilsin ki, AzQAC-la imzalanmış rəsmi müqavilələr əsasında bank və digər maliyyə institutları və təşkilatları ilə ianələrin qəbulunun təmin edilməsinə görə müqavilədə qeyd edilən xidmət haqqı əlavə olaraq ödənilsin;
3. AzQAC-ın Maliyyə Şöbəsi təqdim edilən xərc smetalarını daim nəzarətdə saxlasın.
4. Qərarın icrasına nəzarət AzQAC-ın İcraçı katibi Ceyhun Mirzəyevə həvalə edilsin.

**İdarəetmə Şurasının sədri** **Novruz Aslanov**

**Məsul Katib** **Qafar Əsgərzadə**